## Şuşa şəhər 1 nömrəli orta məktəbi üçün yeni binanın tikintisi ilə bağlı tədbirlər haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan təhsilinin tarixinə ilk dünyəvi tədris ocaqlarından biri kimi daxil olmuş Şuşa şəhər 1 nömrəli orta məktəbi üçün yeni binanın tikintisini təmin etmək məqsədi ilə qərara alıram:

1. Şuşa şəhər 1 nömrəli orta məktəbi üçün Bakı şəhərinin Yasamal rayonu ərazisində 360 şagirdlik yeni binanın tikintisi məqsədi ilə Şuşa Rayon İcra Hakimiyyətinə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 1,5 (bir milyon beş yüz min) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 sentyabr 2011-ci il**

**№ 1720**